## HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Azərbaycanlı şair, publisist, ictimai xadim, Əməkdar incəsənət xadimi, Azərbaycan Yazıçılar Birliyinin Qazax Bölməsinin sədri Barat Vüsal (Barat Alı oğlu Alıyev)18 mart 1951-ci ildə Qazax rayonunun Kosalar kəndində doğulub.***

| | |
|---|---|
| **1968** | "Sarı sünbül" adlı ilk şeirini yazmışdır. |
| **1973** | Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirmişdir. |
| **1982-ci ildən** | Gənc Yazıçıların Respublika Ədəbi Birliyinin üzvü olub. |
| **1983** | Gənc yazıçıların Şüvalanda keçirilən VIII Respublika müşavirəsində iştirak edib. |
| **1986** | İlk şeirlər kitabı "Göz aydınlığı" "Yazıçı" nəşiriyyatında çapdan çıxıb. |
| **1988** | Azərbaycan Yazıçılar Birliyinin üzvü oldu. |
| **1991** | "Ürəyimdən bir çay axır" adlı şeirlər kitabı çap edilib. |
| **1993-cü ildən** | AYB-nin Qazax bölməsinə rəhbərlik edir. |
| **1997** | "Yolumuz eşqə bağlıdır" adlı şeirlər kitabı nəşr edilib. |
| **1998** | AYB-nin və Respublika Həmkarlar İttifaqının keçirdiyi poeziya müsaqibəsində Xəlil Rza Ulutürk ədəbi mükafatına layiq görülüb. |
| **2000-2001** | Şair və filial rəhbəri kimi 2000-2001-ci illərdə Dünya Gənc Türk Yazarlar Birliyinin 2 ödülünə layiq görülüb. |
| **2004** | "Ömür bitər, yol bitməz" adlı şeirlər kitabı nəşr olunub. |
| **2007** | "Qazaxda yaşadım mən öz ömrümü" adlı şeirlər kitabı işıq üzü görüb. |
| **2007-2008** | İTV-də "Ozan məclisini yaradanlardan və onun ilk aparıcılarından biri olub. |

| | |
|---|---|
| **2008** | Klassik ədəbi irsimizin təbliğindəki fəaliyyətinə görə Səməd Vurğun ədəbi mükafatına layiq görülüb. |
| **2009** | Müddətli Prezident təqaüdü verilib. |
| **2011** | Cənab Prezident İlham Əliyevin verdiyi sərəncamla Barat Vüsala 60 illik yubileyində Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adı verilib. |
| **2013** | "Ruh gəmisi" adlı şeirlər kitabı nəşr edilib;<br><br>Bir ziyalı və şair kimi verdiyi təklif əsasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin verdiyi sərəncamla Qazaxda bölgələr üzrə ilk Ədəbiyyat Muzeyi inşa olunub. |
| **2014** | "Kufə əhli" adlı şeirlər kitabı nəşr olunub. |
| **2016** | Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda görkəmli şair, publisist, ictimai xadim Barat Vüsalın kitabının təqdimat mərasimi keçirilib. İki cildlik "Seçilmiş əsərləri" seriyasına şairin şeirləri, poemaları və esseləri toplanıb. |
| **2017** | Azərbaycan Aşıqlar Birliyi İdarə Heyətinin üzvüdür. |
| **2018** | Tehranda Mişov Kultur Dərnəyi tərəfindən nəşr olunan "Söz yaşıllığı" kitabının Yasamal rayonundakı Natəvan adına kitabxanada təqdimat mərasimi keçirilmişdir. |
| **2019** | "Piyada atlı" adlı kitabı çap olunub. Kitabda şairin son illərdə yazdığı şeirlər toplanıb. Kitabın redaktoru Saqif Qaratorpaq, nəşrə hazırlayanı Süleyman Mustafaoğludur. |
| **2021** | "Azərbaycan Vəkilliyinin 100 illiyi" yubiley döş nişanı ilə təltif edilmişdir;<br><br>Martın 13-də şairin 70 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Həmin tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun müvafiq Sərəncamı ilə Əməkdar incəsənət xadimi, şair Barat Vüsala rayonun ictimai həyatında fəal iştirakına və anadan |

| | |
|---|---|
| | olmasının 70 illiyi münasibətilə Fəxri Fərman və gül dəstəsi təqdim olunub. |
| **2023** | "Ayrılmaz yollar" adlı kitabı işıq üzü görmüşdür. Kitabda şairin müxtəlif ədəbi nəsillərə aid yazdığı məqalələr, açıq məktublar, xatirələr və bir çox kitablara ön sözləri toplanmışdır. Kitabın təqdimatı «Atatürk» Mərkəzində keçirilmişdir; |
| **2025** | "Qələm böyüsəni kiçiltmək olmur" adlı kitabı çap olunmuşdur. Bu kitabına haqqında yazılan məqalələr, şeirlər, verdiyi müsahibələr, göndərilən mesajlar, avtoqraflar,təəssüratlar, mətbu qeydlər və keçirilmiş müxtəlif ədəbi tədbirlərdən şəkillər daxildir. Kitab "Qanun" nəşriyyatında çap olunmuşdur. |